AMEA
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 1
Səhifə: 160-164
ISSN: 2663-4406

UOT: 801.7

İlahə Dadaşova*

# MİR CƏLAL PAŞAYEVİN HƏYATI SƏNƏDLİ-BİOQRAFİK MƏNBƏLƏRDƏ

**Açar sözlər:** sənədli-bioqrafik nəsr, memuarlar, yazıçı, müəllim, alim, səmimiyyət
**Key words:** documentary-biographic prose, memory, writer, teacher, scholar, sincerity
**Ключевые слова:** документально-биографическая проза, мемуары, писатель, педагог, ученый, искренность

Müasir Azərbaycan ədəbiyyatında sənədli-bioqrafik nəsr nümunələri böyük əhəmiyyətə malikdir və bu əsərlər predmeti, konkret faktlara istinad edərək real hadisələrdən bəhs etməsi, özündə əks etdirdiyi məna yükünün dərinliyinə görə diqqəti cəlb edir. Odur ki, onların tədqiqata cəlb edilməsi zəruridir. Bu əsərlər özündə ədəbiyyat, mədəniyyət, tarix sahəsini, həmçinin xalqın həyatında mühüm rol oynayan simaların bioqrafiyasını əks etdirdiyindən də dəyərli nəsr nümunələridir.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, Əməkdar elm xadimi, yazıçı, tənqidçi, ədəbiyyatşünas alim, müəllimlər müəllimi Mir Cəlal Əli oğlu Paşayevin müasir Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olmuşdur. "Mir Cəlal yetmiş illik mənalı insan ömrünün tam yarım əsrini bədii, elmi və pedaqoji yaradıcılığa həsr etmişdir" [1, s.289].

O, 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Ərdəbil vilayətində dünyaya gəlmiş, atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçmişdir. Mir Cəlal 10 yaşında olarkən atası vəfat etdiyindən böyük qardaşının himayəsində yaşamışdır. 1923-1928-ci illərdə Gəncə Pedaqoji texnikumunda təhsil almış, Gədəbəy yeddiillik məktəbinə müəllim göndərilmişdir. O, 1928-ci ildə yalnız müəllimlik fəaliyyətinə başlamamış, həmçinin yazıçı kimi ədəbiyyat aləminə gəlmiş, ədəbiyyatşünas kimi ilk tədqiqat əsərini yazmışdır: "Mir Cəlalın 50-yə yaxın bədii, elmi publisistik kitabı, 500-dən çox məqalə – resenziyası, digər elmi-nəzəri dərslikləri çap olunmuşdur" [1, s.288].

M.C.Paşayev 1929-1930-cu illərdə I saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. Əsərlərini çap üçün hazırlayarkən özünə ömür-gün yoldaşı da tapmış, ailə həyatı qurmuşdur: "Mir Cəlal müəllim öz hekayələrini çap maşınında yığdırmaq üçün mütəmadi olaraq "Kommunist" qəzeti redaksiyasına gedir və orada gələcək həyat yoldaşı gülərüzlü, xoşsifətli, mülayim davranışlı, ədəb-ərkanla oturub-duran Püstəxanımla tanış olur və çox keçməmiş, yazıcı 1930-cu ildə Püstəxanımla ailə həyatı qurur" [2, s.21].

Məhz həmin il, yəni 1930-cu ildə Kazan Dövlət Pedaqoji İnstitutuna qəbul olunmuş, bir il sonra Bakıya qayıdıb Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuş, 1933-cü ildən həyatını universitetə bağlamışdır. Filologiya elmləri doktoru Vaqif Yusifli "Mir Cəlal həqiqətləri" adlı məqaləsində onun elmi fəaliyyətini yüksək qiymətləndirərək yazır: "Mir Cəlal görkəmli ALİM idi. Alim sözünü böyük hərflərlə nəzərə çarpdırmağımın və ondan əvvəl görkəmli təyinini işlətməyimin səbəbi var. Mir Cəlal yazıçı olmasaydı belə, biz ondan elmdə müəyyən iz buraxan görkəmli bir alim kimi söz açardıq [3].

O, məqalədə otuzuncu illərin ortalarında Mir Cəlalın küçədə böyük ədib Hüseyn Cavidlə rastlaşarkən Azərbaycan qadın şairlərinin yaradıcılığı barədə mövzu götürmək istədiyini, bu mövzu ilə bağlı xeyli material topladığını bildirdikdə, Cavid əfəndinin Mir Cəlala verdiyi məsləhətə də diqqət

* Bakı Dövlət Universiteti. E-mail: Dadashova.ilaha@mail.ru



yönəldir: "Sən qadınlar haqqında yox, bunu hamı yaza bilər, Füzuli sənəti barədə elmi iş yaz. Dəryada damla axtar, damlada dərya yox!" Və Mir Cəlal "Füzulinin poetikası" mövzusunda elmi iş üzərində işləməyə başlayır. 1940-cı ildə o, həmin mövzuda namizədlik dissertasiyası müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini qazanır" [3].

O, sonrakı elmi fəaliyyəti zamanı da bu mövzunu dönə-dönə işləyərək təkmilləşdirmiş, monoqrafiya şəklində nəşr etdirmişdir. "Füzuli sənətkarlığı" adlı bu elmi əsər Azərbaycan ədəbiyyatşünaslığının ən dəyərli mənbələrindən hesab edilir. Mir Cəlal Paşayev 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər (1905-1917)" adlı doktorluq dissertasiyasını uğurla müdafiə etmiş və filologiya elmləri doktoru adını almışdır. Bütün bu məqamlar da Mir Cəlal ömrünün elmə həsr olunan səhifələridir və bu mərhələ də tədqiqat üçün əhəmiyyətlidir. Məqalədə Mir Cəlalın həyatını və çoxşaxəli fəaliyyətini əks etdirən əsərlərə mənbə kimi istinad etmişik. Həmin əsərlərdə onun həyatının sadaladığımız məqamları müfəssəl şəkildə əksini tapmışdır. Yazıçı-tədqiqatçı Ramiz Dəniz "Qəlblərdə yaşayan Mir Cəlal" əsərində onun keçmişini unutmadığını, xalqa bağlı ömür yaşadığını vurğulayır: "Mir Cəlal müəllim harada doğulduğunu unutmamış və daim uşaqlıq illərinin gözəl xatirələrinin avtobioqrafik tarixçəsinə həkk olunan Cənubi Azərbaycan olaylarını yada salaraq, öz təəssüratlarını dost-tanışları ilə bölüşdürərdi. O, əslən, qəlbən, ruhən öz torpağına, xalqına bağlı müdrik şəxsiyyət idi" [2, s.16].

Ədəbiyyatımıza böyük töhfələr bəxş edən sənətkarın bioqrafiyasının, yaradıcılığının tədqiqi zəruridir. 2014-cü ildə nəşr olunan "Mir Cəlal: həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti" adlı iki cilddən ibarət olan kitabda zəngin ədəbi və pedaqoji irsə malik olan Mir Cəlalın həyat və yaradıcılığı geniş şəkildə əksini tapmışdır. Odur ki, məqalədə bu kitaba əsas mənbə kimi istinad etmişik. Kitabın I cildində müasirlərinin Mir Cəlal haqqında ədəbi-nəzəri düşüncələri, xatirələri, həmçinin Mir Cəlala həsr olunmuş poetik nümunələr verilmiş, bu materiallar öz tematikasına görə 4 fəslə bölünmüşdür. "Ədəbi-nəzəri düşüncələr" adlı I fəsildə Məmməd Arif, İlyas Əfəndiyev, Məsud Vəliyev, Əhəd Hüseynov, Yəhya Seyidov, Qulu Xəlilov, Qara Namazov, Cəlal Abdullayev, Xeyrulla Məmmədov, Himalay Qasımov, Buludxan Xəlilov, Cahangir Məmmədov və ədəbiyyatşünaslıq elminin digər görkəmli nümayəndələrinin məqalələri verilmiş, onun xarakterinə xas səmimilik, sadəlik, təvazökarlıq, müdriklik kimi xüsusiyyətlərə diqqət yönəldilmişdir. Bu məqalələr içərisində akademik Nərgiz Paşayevanın "Yazıçı və zaman" adlı məqaləsi də diqqətəlayiqdir. Müəllif nəşrin giriş hissəsində XX əsrin yetirməsi olan Mir Cəlal müəllimin bioqrafiyasının əsas məqamlarına diqqət yönəldir: "O, Əndəbil kəndinin ən möhtərəm və hörmətli sakini olan Mir Paşa bəyin nəvəsi idi. Atası Mir Əli Mir Əşrəfi çoxlu mülkiyyət sahibi olduğundan böyük oğullarına, Mir Cəlalın özündən böyük dörd qardaşına Əndəbil kəndinin işlərini idarə etməyi tapşırardı. O, ən kiçik, beşinci oğlu Mir Cəlalı isə bu işlərdən uzaqlaşdırıb təhsil dalınca Şimali Azərbaycana, Gəncəyə gətirir. Burada acı tale kiçik yaşlı Mir Cəlalı erkən atasız qoyur. Vəfat etməmişdən bir qədər əvvəl Mir Əli böyük oğullarına kiçik Mir Cəlalı tapşıraraq deyir: "Bu uşağı oxudun, onun mükəmməl təhsili olsun". Beləliklə, Mir Cəlal Gəncə şəhərində qalıb təhsilini davam etdirir, uşaqlıq və gənclik illərini burada keçirir" [4, s.11].

Nərgiz xanım məqalədə diqqəti onun bir yazıçı və ədəbiyyatşünas alim kimi yaradıcılıq yoluna, həmçinin xarakterinin bir sıra tərəflərinə yönəldir: "Mir Cəlal heç vaxt olduğu yüksəklikdən enib, haqqı da olsa, heç kəsdən heç nəyi tələb etmədi. Çünki o, yaxşı bilirdi ki, əsl yüksəklik kağızların, sənədlərin, möhürlərin, qərarların, iclasların hökmü ilə deyil, ləyaqətli insan ömrü və bu ömrün zamandan-zamana təsdiqi və təntənəsi ilə ölçülür. O da sirr deyil ki, daxilində bir ilahi qığılcım yaşayan hər bir yazıçı, alim, ümumiyyətlə, hər bir istedad zaman çərçivəsini yararaq əbədiyyətə qovuşur. Beləliklə, yazıçı və zaman qarşıdurması həmişə olduğu kimi, bu dəfə də yazıçı qalibiyyəti ilə nəticələnir" [4, s.15].

Göründüyü kimi, Mir Cəlal Paşayev zamana qalib gəlib sözünü deməyi, həmçinin örnək olmağı bacarmışdır. Söylənilən fikirlər konkret faktlar əsasında təsdiqini tapmışdır.

Sənətkarın bioqrafiyasını və yaradıcılığını müfəssəl şəkildə əks etdirən "Mir Cəlal: həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti" adlı kitabın birinci cildinin ikinci fəsli "Müasirlərin xatirələrində" adlanır və Mir Cəlal Paşayevin müasirlərinin onun haqqında söylədikləri xatirələri əhatə edir. Burada Mirvarid Dilbazi, Bəxtiyar Vahabzadə, Ağamusa Axundov, Təhsin Mütəllimov və başqa tanınmış şəxsiyyətlər həyatlarının Mir Cəlalla bağlı məqamlarına diqqət yönəltmişlər. Professor Təhsin Mütəllimov "Xatirə yadigarı" məqaləsində tez-tez onun evinə getdiklərini, ailəsi tərəfindən mehribanlıqla qarşılandıqlarını, geniş, gözəl eyvanlarında oturub ondan məsləhət aldıqlarını, ədəbiyyata, mədəniyyətə dair söhbət etdiklərini yazır. Qeyd edir ki, Mir Cəlal müəllim tələbələrinə, aspirantlarına, kafedranın gənc əməkdaşlarına qayğı ilə yanaşar, onların dərdinə şərik olardı. Onlar Mir Cəlal Paşayevin ailəsi tərəfindən də mehribanlıqla qarşılanmış, səmimiyyət, doğmalıq duymuşlar: "Bütün ailə üzvləri ilə qaynayıb-qarışmışdıq. Biz bu evə doğma ocaq kimi baxırdıq. Nə vaxt getsəydik, evin ən ləziz nemətləri stola düzülərdi, bir ailə kimi böyük mehribanlıqla oturub dərdləşərdik, məsləhətləşərdik [4, s.251].

Müəllif qeyd edir ki, Mir Cəlal müəllim onların evlə təmin olunması ilə də maraqlanmış, Təhsin Mütəllimova mikrorayondan yox, mərkəzdən, eyvanlı ev almağı məsləhət görmüşdür. Təhsin müəllim isə cavabında deyir: "Dedim ki, ay Mir Cəlal müəllim, heç mikrorayonda da ev verən yoxdur. Sonra zarafata keçərək əlavə etdim: "Mənə belə bir eyvan versəydilər, elə bəs edərdi, heç evini istəmirəm. Mir Cəlal müəllim güldü: "Heç bilirsən bu eyvanı alanacan nə qədər dava-dalaş görmüşəm, əsəbilik keçirmişəm? Bir də Təhsin, düzdür, istər alim olsun, istər yazıçı rahat ev lazımdır, yaxşıdır. Ancaq mən ən yaxşı əsərlərimi İçərişəhərdə bir kiçik mənzilim vardı, orada yazmışam. Yəni əsər yazmaq üçün ev məsələsi əsas səbəb ola bilməz. Darıxma, sənə də gec-tez ev verəcəklər" [4, s.251].

Mir Cəlal Paşayev Xalq şairi Nəriman Həsənzadənin evlə təmin olunmasına kömək etmiş, oğlu Arif Paşayevə veriləcək evin ona verilməsi üçün vasitəçi olmuşdur. Nəriman Həsənzadə bu barədə deyir: "Mənə ikinci, mənəvi atalıq edən də müəllimim olub. Dolaşıq, qaranlıq tale yollarımda – qarşıma birinci o çıxdı. İş axtarma, adam axtar. Adam da mən! – dedi. Özünü nişan verdi: Yazıçı Mir Cəlalı!" [5, s.4]

Nəriman Həsənzadə vurğulayır ki, "adam axtar" sözünü çox adam deyə bilər, lakin özünü nişan verən adam Mir Cəlal müəllim oldu. Bu da onun təbiətindən irəli gəlirdi. Fransız yazıçısı Roman Rollan deyib: "Həqiqi dahi o adamdır ki, ürəyi hamı üçün döyünür" [6, s.55]. Mir Cəlal müəllim məhz belə şəxsiyyətlərdəndir. Bu fikir onun bioqrafiyasına istinad etməklə konkret faktlar əsasında təsdiqini tapır.

Kitabın bu fəslində fizika elmləri doktoru Hafiz Paşayev "Atam haqqında xatirələrim" məqaləsində Mir Cəlal Paşayevin xatirələrdə hansı səbəbdən bu qədər hörmət və məhəbbətlə yad edildiyini, oxucularının onu unutmadığını, adının ədəbiyyat tarixinin səhifələrinə düşdüyünü sənətkarın bədii və elmi dünyasının, bütövlükdə, yaşadığı ömrün mükəmməlliyi ilə əlaqələndirmiş və fikrini əsaslandırmışdır. Səməd Vurğunun ona zarafatla söylədiyi fikir də Mir Cəlal Paşayevin xarakterini müəyyənləşdirməyə xidmət edir: "Mir Cəlal, bilirsən, mənimki səninlə niyə tutmur? Çünki sən həddindən artıq düz adamsan" [4, s.174].

Hafiz Paşayev qeyd edir ki, Mir Cəlal müəllim ünsiyyətdə olduğu insanları tutduğu vəzifəyə və ya lazımlığına görə deyil, təfəkkürünə, uyğun olduğuna görə dəyərləndirmişdir. O, ən gərgin məqamlarda, mürəkkəb situasiyalarda təmkinini qorumuş, analitik təhlil apararaq hadisələri düzgün şəkildə şərh etməsilə də seçilmişdir: "Təbiilik və sadəlik Mir Cəlalın həm yaradıcılığına, həm də şəxsi həyatına məxsus keyfiyyətlər idi. Bu xüsusiyyət, zənnimcə, onun həyata və təbiətə incə zövq və vurğunluq münasibəti bəsləməsindən irəli gəlirdi. O, hətta dramatik görünən hər hansı bir hadisəni çox təmkinlə, aramla qəbul edər, içərisində təhlilini aparar, fəlsəfi baxışla öz izahını verərdi" [4, s.174].

Kitabın III fəsli "Əbədiyaşar ümumxalq sevgisi" adlanır. Burada Mir Cəlal müəllimin 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərə dair yazılar və şəkillər, "Mir Cəlala həsr edilmiş poetik





nümunələr" adlanan IV fəsildə isə S.Rüstəm, H.Arif, X.Yusifli, N.Həsənzadə və digər şairlərin ona ithaf etdiyi şeirlər verilmişdir. Bu materiallar da onun həyatı haqqında müəyyən qədər məlumat almağa imkan verir.

Kitabın ikinci cildi "Mir Cəlal: Ömrün mənalı anları" adlanır, ədibin fotoşəkilləri, əlyazmaları və epistolyar irsini əhatə edir. Bu albom–kitabda Mir Cəlalın həyatı və mühiti məhz fotoşəkillərlə müşayiət olunur və həmin fotolar onun həyatının müxtəlif məqamları ilə bağlı təsəvvür yaratmağa xidmət edir.

Yazıçının yaratdığı əsərlər kimi, görkəmli alimin ömür yolunu da tədqiqat üçün əhəmiyyətli mənbə hesab edə bilərik. Yazıçı, alim, müəllim ömrü yaşayan böyük ictimai xadim Mir Cəlal Paşayevin tərcümeyi-halında bu üç sahə paralel şəkildə, özü də uğurla inkişaf etmişdir. O, Azərbaycan ədəbiyyatına, elminə, təhsilinə böyük töhfələr bəxş etmişdir. 110 illik yubileyi qeyd edilən Mir Cəlal Paşayevin həyat və yaradıcılığı hər zaman aktuallığını qoruyacaq, bu gün olduğu kimi gələcəkdə də daim istinad edilən dəyərli mənbələrdən biri olacaqdır.

Sənətkar yaratdığı əsərlər vasitəsilə həyatı dərk etdirdiyi kimi, yazıçının bioqrafiyasını əks etdirən əsərlər də onu yaxından tanıtmaqda əvəzsiz vasitədir. Onlardan biri də bioqrafiyasına nəzər salınan insanın xarakteri, həyatda tutduğu mövqe, prinsipləri ilə bağlıdır. Bu əsərlərdə əsas məsələ səmimiyyət və həqiqətə sadiq qalmaq məsələsidir. Bioqrafiyası tədqiqata cəlb edilən Mir Cəlal Paşayev bütün həyatı boyu bu anlayışları əsas olaraq götürmüş, onlara sadiq qalmışdır. Bütün bunlar onu deməyə əsas verir ki, o, yaşadığı həyat, tutduğu mövqe və çoxşaxəli fəaliyyəti ilə örnək olmağı bacarmışdır. Azərbaycan elminə, təhsilinə, ədəbiyyatına böyük töhfələr verən sənətkarın bioqrafiyası da tədqiqat üçün əhəmiyyətli mənbədir. Onun əsərlərinə daim müraciət ediləcək, sənətkarın həyatı da yaradıcılığı kimi gələcək tədqiqatların mövzusu olacaqdır.

## ƏDƏBİYYAT

1. Müasir Azərbaycan ədəbiyyatı. Dərslik. 2 cilddə, I c. Bakı, Bakı Universiteti, 2007.
2. Dəniz Ramiz. Qəlblərdə yaşayan Mir Cəlal. Bakı, "Yurd" NPB, 2008.
3. Yusifli V. Mir Cəlal həqiqətləri. http://www.azerbaijan-news.az/index.php? mod=3&id=50052
4. Əhmədov T. Mir Cəlal: həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti. 2 cilddə, I c. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014.
5. Həsənzadə N. Seçilmiş əsərləri. 7 cilddə, VII c. (Müsahibələr... Tərcümələr... Aforizmlər... Axtarışlar... Məktublar...) Bakı, 2014.
6. Cəfərov M., Ramizoğlu S. Ağıla və qəlbə işıq saçan sözlər. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009.

## MIR JALAL PASHAYEV'S LIFE AS ONE OF THE SOURCES OF DOCUMENTARY-BIOGRAPHIC PROSE

*Summary*

The article deals with the writer, literary critic, teacher Mir Jalal Pashayev. He made great contribution to Azerbaijani literature, science, education. Both of his novels and his life are important for the research, too. We refer in the article to sources which reflect Mir Jalal's life and multifaceted activities. In the article the main source is the book named "Mir Jalal – life, around, literary, scientific and pedagogical activity". Acquaintance with his biography shows that he is an ordinary, frank and humble man. As a writer, a teacher, a scientist Mir Jalal Pashayev's biography developed in parallel and successfully in three ways. It is not easy to achieve it. Mir Jalal was able to live honourable life. Therefore, the life of writer whose scientific works are researched should be studied, too. The writer said himself that, his greatest work was his family.

# ЖИЗНЬ МИР ДЖАЛАЛА ПАШАЕВА КАК ОДИН ИЗ ИСТОЧНИКОВ ДОКУМЕНТАЛЬНО-БИОГРАФИЧЕСКОЙ ПРОЗЫ


***Резюме***

В статье речь идёт о жизни писателя, критика, литературоведа, ученого, педагога Мир Джалала Пашаева, внёсшего весомый вклад в азербайджанскую литературу, науку, образование. Созданные им произведения, как и весь его жизненный путь, представляют большой интерес для научного исследования. В статье отражена многогранная деятельность Мир Джалала. Источником послужила книга под названием "Мир Джалал: жизнь, среда, литературная, научная и педагогическая деятельность". Из его биографии видно, что Мир Джалал Пашаев – искренний, скромный человек. В биографии писателя, ученого и педагога Мир Джалала Пашаева эти три линии развиваются параллельно и успешно. Добиться этого нелегко. Мир Джалал прожил содержательную и достойную жизнь. Мы полагаем, что к исследованию должны быть привлечены не только научные и художественные произведения писателя, но и его жизненный путь. Сам Мир Джалал подчеркивал, что величайшее его произведение – его прекрасная семья.